# "Xaliq Faiqoğlu" MMC-də Heydər Əliyevin xatirəsi böyük ehtiramla anılıb

"Xaliq Faiqoğlu" Məhdud Məsuliyyətli Cəmiyyətində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə tədbir keçirilib. Şirkətin müasir standartlara cavab verən Təmir Mərkəzində təşkil edilmiş tədbirdə MMC-nin rəhbərliyi, dövlət qurumlarının rəsmiləri və ictimaiyyət nümayəndələri iştirak edib. Tədbiri giriş nitqi ilə açan "Xaliq Faiqoğlu" MMC-nin baş direktoru Faiq







Seyidov Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyinin siyasi və iqtisadi əsaslarını yaradan tarixi şəxsiyyət olduğunu, nüfuzlu rəhbər kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazandığını bildirib. O qeyd edib ki, məhz dünya miqyaslı ictimai-siyasi xadim Heydər Əliyevin fəaliyyəti, qətiyyəti, möhkəm siyasi iradəsi nəticəsində müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur: "Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizdə nəqliyyat və yol tikintisi sahəsində həyata keçirilən quruculuq işləri bu gün onun banisi olduğu müasir Azərbaycan Respublikasının iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. Onun işləyib hazırladığı Azərbaycan Respublikasının iqtisadi inkişaf konsepsiyasında nəqliyyat sektoru xüsusi yer tuturdu. Biz bunu fəaliyyət göstərdiyimiz 16 illik dövrdə hər zaman hiss etmişik. Məhz ulu öndərin qoyub getdiyi xəttin davamıdır ki, bu gün paytaxt Bakıda nəqliyyatın əsas istiqamətlərindən biri olan avtobus sərnişindaşıma sahəsi inkişaf edir və yüksək nəticələr əldə edilir".

Şirkət rəhbəri xüsusilə vurğulayıb ki, dövlət rəhbərliyinin diqqəti və dəstəyi nəticəsində bu gün paytaxt Bakıda müasir sərnişindaşıma xidmətlərinin göstərilməsi istiqamətində işlər görülür və yeni layihələr həyata keçirilir: "Şirkətimiz Bakı şəhərində elektron ödəmə sistemini tətbiq edən ən böyük daşıyıcı qurumdur. Artıq 8 müntəzəm marşrut xətti üzrə BakıKart sistemi tətbiq edilib və bu işləri müvəffəqiyyətlə davam etdiririk. Elektron ödəmə sisteminin tətbiq edildiyi 154 avtobus ən müasir standartlara cavab verir və yüksək keyfiyyətli sərnişindaşıma xidməti göstərir".

Faiq Seyidovun nitqindən sonra şirkət əməkdaşları təqdimat xarakterli çıxışlar edərək son illərdə görülmüş işlər və əldə edilmiş nailiyyətlərdən bəhs ediblər.

Daha sonra Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov çıxış edərək yüksək keyfiyyətli sərnişindaşıma xidmətinin təşkilinə görə "Xaliq Faiqoğlu" şirkətinin rəhbərliyinə təşəkkür edib. O bildirib ki, müasir standartlara cavab verən avtobusların çoxluğu, keyfiyyətli sərnişindaşımanın tətbiq edilməsi Bakı şəhərinin nəqliyyat yükünün azaldılmasına, tıxacların qarşısının alınmasına böyük fayda verə bilər. Yol polisi rəsmisi sürücülərin də bəzi məsələlərdə diqqətli olmasını, sərnişinlərdə yol-nəqliyyat mədəniyyətinin formalaşdırılmasını xahiş edib.

Bundan başqa, tədbirdə iştirak edən ekspertlər öz təkliflərini və Bakı şəhərindəki sərnişindaşıma fəaliyyəti ilə bağlı görmək istədikləri yenilikləri çatdırıblar. Nəqliyyat sahəsində tanınmış ekspertlər Ərşad Hüseynov, Tural Yusifov, Hüseyn Abdullayev, Elməddin Muradlı və digərlərinin iştirakı ilə təşkil edilən ümumi paneldə maraqlı diskussiya keçirilib. Müzakirələr zamanı müxtəlif təkliflər irəli sürülüb, gələcək planlardan söz açılıb. Həmçinin ekspertlər sürücülərə tövsiyələrini veriblər, bu tipli tədbirlərin tez-tez keçirilməsinin çox faydalı olduğunu vurğulayıblar.

***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 11 may.- S.6.